AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT TORPAQ və XƏRİTƏÇƏKMƏ KOMİTƏSİ

Yerli koordinat sistemi
AZƏRBAYCAN RESPUBLİKASI

450

XİDMƏTİ İSTİFADƏ ÜÇÜN
BAKI ş.



Bayıl sürüşmə sahəsi
1:5000

Bayıl yamacı sahəsində sürüşmə prosesləri 19-cü əsrin ortalarından başlayaraq mütəmadi olaraq müxtəlif dərəcədə aktivləşmişdir. Növbəti ciddi aktivləşmə 1996-2000-ci illərdə qeyde alınmışdır. Ərazide hər dəfə sürüşmə prosesi aktivləşərkən onun konturları genişlənmiş yeni sahələr bu prosesin təsirinə məruz qalmışdır. 1996-cı ildə baş vermiş sürüşmənin eni 140-150 m, uzunluğu 250-260 m təşkil edirdisə 07.03.2000-ci ildə baş vermiş sürüşmənin eni 320-330 m, uzunluğu 360-370 m, qırılma qaşının hündürlüyü 38 m, sürüşmə kütləsinin həcmi 10 milyon m^3-dən artıq olmuşdur.

Bayıl yamacında sürüşmə prosesinin inkişafı təbii və texnogen amillərin kompleks təsiri nəticəsində baş verir: relyefin dik yamaclılığı (25-45°), yamacı təşkil edən süxurların yamac istiqamətində yatması, süxurların dayanıqsızlığı (gillərdən çatlı əhəngdaşlarından və gilli qumlardan ibarət olması), «Əbədi Məşəl» kompleksi ətrafında pozulma xətlərinin mövcudluğu, atmosfer yağmurlarının təsiri, Bayıl dərəsi boyunca kanalizasiya sistemi olmayan xeyli sayda yaşayış binalarının (bir və iki mərtəbəli) tikilməsi, yamacın yüklənməsi,Telestudiya tərəfindən kommunikasiya sistemlərindən, su borularından olan sızmalar, Nefçilər prospektində yamacın kəsilməsi, sahədə iridiametrli su borularının istismarı, ağır yük maşınlarının hərəkəti və s.

2000-ci ildə sahədə baş vermiş sürüşmə prosesindən sonra yamacda hamarlama, yeni mailli yamacın yaradılması və suötürücü beton kanallarının inşaası həyata keçirilmişdir. Sürüşmə sahəsində müxtəlif yerli təşkilatlar (Hökumət və qeyri Hökumət) eləcədə Beynəlxaq təşkilatlar tərəfindən iri miqyaslı kompleks mühəndisi-geoloji,hidrogeoloji,geofiziki topogeodezik,və labarator tədbirlər həyata keçirilmişdir.

2011- ci ildə sahədə baş vermiş növbəti aktivləşmədən sonra ərazidə tikinti-bərkitmə işləri yerinə yetirilmişdir.

ŞƏRTİ İŞARƏLƏR

Sürüşmə-uçqun sahələrinin sərhədləri

Xəzər dənizinin səviyyə yüksəkliyi 2004 ilin orta

Qonşu vərəqlərin yerləşmə sxemi

409	410	411
449	450	451
489	490	491

1:5000
1 santimetrdə 50 metr
Bütöv horizontallar 1 (I) və 2 (2) metrdən bir keçirilmişdir
Baltik yüksəklik sistemi

Relyefin kəsmə yüksəkliyi sxemi

1987 ildə planalınmış, 2005 ilin kosmik şəkilləri üzrə yeniləşdirilmişdir
Dövlət Aerogeodeziya Müəssisəsi
Nəşr 2006 il. BKF